# Dil vahidlərinin leksik-semantik fərqliliyi barədə

**Lətafət Kamil qızı Xəlilova**
*ADU-nun baş müəllimi*
**E-mail:** latafat@yahoo.com

**Rəyçilər:** filol.ü.f.d., dos. S.B. Mustafayeva,
filol.ü.f.d., dos. İ.M. Nuriyeva

**Açar sözlər:** söz, cümlə, fərqlilik, semantik, faktor, dil, sistem
**Ключевые слова:** слово, предложение, различие, семантика, фактор, язык, система
**Key words:** word, sentence, difference, semantic, factor, language, system

Dilin leksik-semantik sistemi ən az tədqiq olunan sahəsidir və təşkili strukturuna görə ən çox mürəkkəbdir. Başqa sistemlərdən fərqli olaraq dilin leksik sistemi xarici, ekstralinqvistik faktorlardan asılıdır. O real həyatda olan dəyişiklikləri bilavasitə əks etdirir. Dilin sosiallığı və onun sistemliyi bir-birilə sıx əlaqəlidir. Bununla əlaqədar dilçilikdə iki istiqamət mövcuddur: xarici, sosiolinqvistik və daxili, sistemli-strukturlu. Dilin söz tərkibinin sosiolinqvistik sistemləşməsi müxtəlif aspektlərdən keçirilir. Birinci, leksikanı sözlərin əmələ gəlməsi nəzər nöqtəsindən təhlil etmək olar, yəni orijinaldan alınma leksikanı ayırmaq məqsədilə. İkincisi, xarici faktorları nəzərə almaq şərti ilə dilin söz tərkibi inkoherentlidir, yəni müxtəlifdir - sözlərin işlənmə səviyyəsi nəzər nöqtə-sindən. Bu mənada leksikanı aktiv və passivə ayırmaq olar, yəni neologizmlər və arxaizmlər (1, s. 90). Həmçinin leksikanın sistemləşməsi onun işlənmə sahələri nəzər nöqtəsindən keçirilə bilər. Burada ümumişlək, xüsusi, neytral və üslubi kodlaşmış formalar nəzərdə tutulur.

Sistemli-semasioloji yanaşma dilin söz tərkibinin daxili semantik strukturunun xarakteristikası ilə bağlıdır. Leksikanın sistemlik anlayışına bu səviyyənin iki xarakterik əlaməti daxildir: birincisi, leksik sistem söz vahid-lərinin qrupları kimi, ikincisi, leksik sistem bu vahidlərin quruluş forması və onların əməkdaşlıq vasitələri kimi. Dilin söz tərkibi müxtəlif linqvistik lüğətlərdə təsnif edilib. Burada sözlərin sistemli xüsusiyyətləri izah edilir. G.Krap qeyd edir ki, sözlərin sistemli semantik əlaqələri qeyri-dil faktorlardan asılıdır (əşyaların və obyektiv dünyanın hadisələrinin əlaqələri) - əsas sistemliyin əlaməti kimi (3, s.16). Halbuki sözlərin linqvistik xüsusiyyətləri də az rol oynamır. Məsələn, sözlərin ənənəvi nitq hissələrinə bölgüsü onların leksik-semantik və formal-qrammatik əlamətlərinin əsasında olur. Onu da qeyd edək ki, sözlərin birləşməsi üçün əsas kriteriya onların semantik strukturunda oxşar və fərqli cəhətlərinin mövcudluğudur.

Beləliklə, dil vahidləri bir-birilə sıx bağlıdır, bir-birindən asılıdır, bir sistem yaradaraq müəyyən əlaqələr yaradır. Dil tək sistem kimi mövcud deyil, o həmçinin sistem kimi inkişaf edir. İngilis dilinin müxtəlif leksik-semantik qrupları mövcuddur. Məsələn,

| British English | American English | Azərbaycan dilində olan ekvivalentlər |
|---|---|---|
| ABC | ABC’s | əlifba |
| action replay | instant replay | təkrar |
| airhostess | stewardess | stüardessa |
| American football | football | Amerikan futbolu |